*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 noyabr 2015-ci il № 90 (2006) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının təhsil və elm naziri Dmitri Livanovu qəbul edib.***

***Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında bu il artıq ilk buraxılışın olmasının və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının ölkəmizdə fəaliyyətə başlamasının önəmini qeyd etdi. Dövlətimizin başçısı təhsil sahəsində əməkdaşlığımızın digər formalarının müəyyənləşdirilməsinin zəruriliyini də qeyd etdi. Azərbaycanlı tələbələrin Rusiyanın müxtəlif ali məktəblərində təhsil almalarını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığımızın daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladı, müxtəlif sahələr üzrə mütəxəssislərin hazırlanmasında təhsilin hər iki ölkə üçün əhəmiyyətli olduğunu dedi.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Bridcet Brink ABŞ və Azərbaycan prezidentlərinin ikitərəfli münasibətlərimizlə bağlı apardıqları müzakirələrdən sonra Prezident İlham Əliyevlə görüşmək imkanı əldə etmələrini yüksək dəyərləndirdi. Əvvəllər də Azərbaycana səfər etdiyini bildirən xanım Bridcet Brink paytaxtımızda gedən müsbət dəyişikliklərin onlarda dərin təəssürat yaratdığını dedi.***

***Dövlətimizin başçısı G20-nin Antalya toplantısında ABŞ Prezidenti Barak Obama ilə ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı fikir mübadiləsi apardıqları zaman ABŞ Prezidentinin 10 il bundan əvvəl senator kimi Azərbaycana səfərini xatırladığını məmnunluqla qeyd etdi. Ölkələrimizin müxtəlif sahələrdə uzun illərdir ki, uğurla əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev enerji və regional təhlükəsizlik, iqtisadi inkişaf və digər sahələrdə əlaqələrimizin əhəmiyyətini xüsusi vurğuladı.***

***Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Azərbaycanla ABŞ arasında əlaqələrin enerji, iqtisadi şaxələndirmə, ticarət, təhsil, kənd təsərrüfatı, birgə layihələr, terrorizmə qarşı mübarizə, insan haqları və demokratiya və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.***

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# "Azərbaycan Ordusunun əsas gücü onun əsgər və zabitlərinin vətənpərvərliyindədir"



***Artıq bayram günlərində, əlamətdar tarixi hadisələr ərəfəsində əsgərlərin ziyarət edilməsi orduda dəyərli bir ənənəyə çevrilib. Yayın qızmar istisində, qışın isə çovğununda-şaxtasında döyüş postunda ayıq-sayıq Vətənimizin müdafiəsində dayanan oğullarla keçirilən hər görüş onların yaddaşında ən əlamətdar hadisə kimi uzun müddət xatırlanır. Bu günlərdə Müdafiə Nazirliyinin rəhbərliyi yenə də düşmənlə təmas xəttində yerləşən hərbi hissələrə səfər edib və Ali Baş Komandan tərəfindən ordunun qarşısına qoyulmuş döyüş tapşırıqlarının icrası ilə bağlı öz tövsiyələrini verib. Belə tədbirlər cəmiyyətimizdə də rəğbətlə qarşılanır, xalqın orduya və əsgərin gücünə olan inamını daha da artırır.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatında qeyd edildiyi kimi, ön xətdəki bölmələrin döyüş hazırlığı ilə dərindən maraqlanan nazirliyin rəhbərliyi əsgərlərlə görüşüb, onlarla səmimi söhbətlər edib və döyüşçülərin sosial şəraitini yoxlayıb. Əsgərlərin naharına qonaq olan Müdafiə naziri gənc döyüşçülərlə duz-çörək kəsir, ürək sözlərini dinləyir və problemlərini, qayğılarını bilavasitə özlərindən eşitməyə üstünlük verir. Əslində rəhbərliklə olan birbaşa təmas şəxsi heyətin döyüş ruhunu gücləndirməklə bərabər Silahlı Qüvvələrimizdə aparılan hərbi vətənpərvərlik tərbiyəsi işinə layiqli töhfə verir. Dəfələrlə cəbhə bölgələrində ezamiyyətdə olanda Müdafiə naziri tərəfindən mükafatlandırılan gənc döyüşçülərlə görüşüb onların yüksək qələbə əzmindən xəbər tutmuşam. Füzuli bölgəsində ön xətdə bir taqımın şəxsi heyəti ilə görüşəndə neçə əsgərin sinəsində medal, neçəsinin qolunda qiymətli saat görmüşdüm. Bir əsgər qolundakı saatı açıb göstərərək demişdi ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsən bu hədiyyəni nümunəvi xidmətinə görə ona bağışlayıb. Həmin anda döyüşçünün gözlərindən nə qədər inamlı, qürurlu olduğunu hiss etdim. Sinəsi medallı cəsur bir kəşfiyyatçımızla tanış olanda Müdafiə nazirinin ona medalı şəxsən təqdim etdiyini qürurla bildirmişdi və qeyd etmişdi ki, bu yüksək etimada cavab olaraq torpaqlarımızın hər qarışı uğrunda son nəfəsinədək döyüşməyə hazırdır.

**(Ardı 2-ci səhifədə)**

# "Ermənistan XİN rəhbərliyi öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır"

***Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın müsahibəsində səsləndirdiyi fikirlərə cavab verib.***

H.Hacıyev bildirib ki, Ermənistanın xarici işlər naziri müsahibəsində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçıları səviyyəsində Akvil, Muskoka, Dövil, Los-Kabos və Enniskilendə verdikləri bəyanatlarını və ATƏT-in Helsinki Yekun Aktının prinsiplərinin mahiyyətini təhrif edir, öz xalqını və beynəlxalq ictimaiyyəti aldatmağa cəhd göstərir. Bu, həmçinin, Ermənistan Xarici İşlər Nazirliyinin beynəlxalq sənədləri dərketmə səviyyəsinin dayazlığını göstərən növbəti faktdır.

1975-ci il Helsinki Yekun Aktında öz təsbitini tapmış prinsiplərin üzvi şəkildə bir-biri ilə bağlı olduğu, onların bərabər və ümumilikdə tətbiq olunmasının vacibliyi bildirilərək, ilk növbədə bir dövlətin digər dövlətin ərazi bütövlüyü və ya siyasi suverenliyinə qarşı güc tətbiq etmək və ya güc tətbiq edərək hədələməkdən çəkinməsi kimi öhdəliyinin olduğu qeyd edilir.

Eləcə də dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipləri bir daha təsdiq olunaraq, güc vasitəsilə ərazi əldə edilməsinin qəbuledilməzliyi vurğulanır. Bununla bərabər, dövlətlərin ərazi bütövlüyü və ya siyasi suverenliyinə qarşı gücdən istifadənin nəticəsində yaranmış vəziyyətin hüquqi qəbul edilməməsinə dair dövlətlərin öhdəliyi var.

Eləcə də xalqların öz müqəddəratını təyin etməsi hüququnun ifadəsi hər hansı dövlətin ərazi bütövlüyü və ya siyasi müstəqilliyinə qarşı fəaliyyətin həyata keçirilməsinə imkan verən hal kimi təfsir oluna bilməz. Helsinki Yekun Aktının 8-ci bəndində deyilir: "İştirakçı dövlətlər xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etmək hüququna hörmət edərək, bütün hallarda BMT Nizamnaməsinin məqsəd və prinsipləri və beynəlxalq hüququn müvafiq normaları, eləcə də dövlətlərin ərazi bütövlüyünə uyğun şəkildə fəaliyyət göstərəcəklər".

Həmsədr ölkələrin prezidentlərinin qeyd olunan bəyanatında Helsinki Yekun Aktına uyğun olaraq, münaqişənin həllinə dair prinsiplər bu ardıcıllıqla verilib: güc tətbiq etməmək və ya güc tətbiq edərək hədələməmək, dövlətlərin ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə. Güc tətbiq etmək və ya güc tətbiq edərək hədələmək prinsipindən çox danışan Ermənistan tərəfi hələ də anlamır ki, bu prinsipdən irəli gələn şərtlərin icra edilməsi məsuliyyəti də bilavasitə Ermənistana aiddir. Hərbi güc tətbiq edərək, Azərbaycanın ərazilərini işğal edən tərəf Ermənistandır. Azərbaycanın işğal edilmiş ərazilərində çoxsaylı hərbi kontingent saxlayaraq, hədə doğuran tərəf də məhz Ermənistandır.

İndi Ermənistan Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı güc tətbiq edərək ərazilərin işğalı və törədilmiş etnik təmizləmənin nəticələrini "öz müqəddəratını təyinetmə" kimi təqdim etməyə cəhd göstərir. Bu, sadəcə olaraq, Ermənistanın Azərbaycana qarşı işğalını uğursuz formada pərdələmək cəhdindən başqa bir şey deyildir.

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə xələl gətirmədən, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ölkəmizin Dağlıq Qarabağ bölgəsinin Azərbaycan və erməni icmalarının müvafiq muxtariyyət statusu əsasında bu hüquqdan istifadə edə bilərlər.

Qeyd olunanlarla bərabər, münaqişənin həllinin hüquqi-siyasi əsasları xüsusilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrində müəyyən olunub. Qətnamələr Azərbaycanın ərazilərinin işğal edilməsini pisləyib, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edib. Eləcə də Təhlükəsizlik Şurası bu qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq edib və işğalçı qüvvələrin zəbt edilmiş bütün Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Digər beynəlxalq təşkilatlar da oxşar mövqe nümayiş etdiriblər.

Ermənistan beynəlxalq ictimaiyyətin mövqeyinə tam hörmətsizlik edərək və beynəlxalq hüququn ümumi qəbul olunmuş norma və prinsiplərini kobud şəkildə pozaraq özünün qeyri-real işğalçılıq iddialarında təkid etməklə, zəbt edilmiş ərazilərin fiziki, demoqrafik və mədəni adlarını dəyişdirərək və yüz minlərlə məcburi şəkildə köçürülmüş azərbaycanlının öz doğma yurdlarına qayıtmasını və bu ərazilərdəki öz əmlakına sahib olmaq hüququnu rədd edərək hazırkı status-kvonun möhkəmlənməsinə yönəlmiş səylər göstərməyə davam edir.

Yaranmış vəziyyətə görə bütün məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

**AZƏRTAC**

# Ali Baş Komandan İlham ƏLİYEV:

# “Azərbaycan Ordusunun əsas gücü onun əsgər və zabitlərinin vətənpərvərliyindədir”



(Əvvəli 1-ci səhifədə)

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyətlə müxtəlif hərbi hissələrdə keçirilən görüşlərində Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi diqqətin nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırır. Nazir qeyd edir ki, maliyyə böhranına baxmayaraq ordu quruculuğunun daha da inkişaf etdirilməsi ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Cəbhə bölgələrinə səfərləri çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov daim ordunun komandir heyətindən bir vəzifə olaraq tələb edir ki, hər bir əsgərin, döyüşçünün sosial şəraitinə ciddi fikir verilməlidir. Şəxsi heyətlə iş üzrə cavabdeh zabitlərin toplantısında çıxışı zamanı nazir israrla tələb etmişdi ki, cəbhə xəttində xidmət edən döyüşçülərin heç bir problemi diqqətdən kənarda qalmamalıdır.

Bu gün Azərbaycan vətəndaşının doğma orduya olan inamı böyükdür, bu inamı doğuran əsas səbəb isə əsgər və zabitlərimizin döyüş qabiliyyyətinin güclənməsidir. Ötən ilin avqustunda və sonrakı dövrdə cəbhə xəttində erməni silahlı qüvvələri tərəfindən intensivləşən təxribat-diversiya cəhdlərinin ordumuzun şəxsi heyəti tərəfindən qətiyyətlə dəf edilməsi Azərbaycan cəmiyyətində, sözün həqiqi mənasında, böyük canlanma yaratmışdı. Yaxşı xatırlayıram, o zaman Müdafiə nazirinin elektron saytına gələn müraciətlərin ardı-arası kəsilmirdi. Təkcə Azərbaycanın ayrı-ayrı bölgələrində deyil, başqa ölkələrdə yaşayan soydaşlarımız da hər an ordumuzun yanında olmağı və döyüşçülərimizə dəstək verəcəklərini ifadə edirdilər. Hətta yüzlərlə gənc cəbhəyanı bölgələrə axışaraq döyüşməyə hazır olduqlarını bildirmişdi. O vaxt nə qədər belə müraciətin mətni qəzetimizdə də dərc edilmişdi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2014-cü ildə Ağdam bölgəsinə səfəri zamanı birbaşa cəbhə xəttinə gedərək qəhrəman döyüşçülərlə şəxsən görüşmüşdü və cay süfrəsində onlarla səmimi söhbətlər aparmışdı. Döyüşçülərə dövlətin yüksək mükafatlarını təqdim edən ölkə başçısı ordumuzun hərbi qüdrətinin gücləndiyini bildirərək "Azərbaycan Ordusunun əsas gücü onun əsgər və zabitlərinin vətənpərvərliyindədir", - fikrini qeyd etmişdi. Əslində Prezidentin bilavasitə düşmənlə təmas xəttindəki hərbi bölməyə gəlişi vətənpərvərlik nümunəsi idi və bu, düşmənə bir daha mesaj oldu ki, Azərbaycanın dövlət rəhbərliyi daim öz əsgərinin yanındadır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov yeni və müasir hərbi şəhərciklərin, digər hərbi obyektlərin açılış mərasimlərində çıxışlarında da dəfələrlə qeyd edib ki, hazırda Azərbaycan Ordusu Ali Baş Komandanımızın diqqət və qayğısı ilə əhatə olunub. Bütün bölgələrdə yeni hərbi hissələr tikilərək istifadəyə verilir və burada müasir tələblərə cavab verən sosial şərait yaradılır. Əsgərlərin yüksək səviyyəli hamam-camaşırxana şəraiti, müasir yeməkxanalarda peşəkar aşpazlar tərəfindən hazırlanan milli xörəklər şəxsi heyətin dərin rəğbətinə səbəb olur.



Bu günlərdə Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində keçirilən "Açıq qapı" günü, sözün həqiqi mənasında, xalqla ordu birliyinin təntənəsinə çevrildi. Bütün bölgələrdə keçirilən belə tədbirlərdə ictimaiyyətin nümayəndələri, valideynlər və media təmsilçiləri əsgərlər üçün yaradılan şəraitlə yaxından tanış oldular. Redaksiyamıza gələn valideyn məktublarında da bir fikir xüsusi vurğulanır ki, doğrudan da, ordu quruculuğu dövlət rəhbərliyinin siyasi kursunun əsas prioritetidir. Övladlarının hərbi xidmətindən və onlara yaradılan müasir məişət şəraitindən razılıq edən insanlar qəzetimiz vasitəsilə öz ürək sözlərini bölüşərək Prezidentə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə edirlər.

Müdriklərin dilində bir deyim var: söz silahdan kəsərlidir. Müdafiə Nazirliyi rəhbərliyinin səngərdə döyüş növbəsində dayanan əsgərlərlə hər görüşü, hər söhbəti də ordumuzun şəxsi heyətində xoş ovqat yaradır və hərbi qulluqçuları Vətənin müdafiəsində daha mətin, ayıq-sayıq dayanmağa, düşmənə qarşı mübarizədə əzmli olmağa ruhlandırır. İnanmaq lazımdır ki, hər belə səfərdən sonra əsgərlərimizdə məsuliyyət hissi güclənir və hər an işğalçılara öz sözünü deməyə fürsət axtarır. Belə ordu isə yalnız qalibiyyət qazanmağa qadirdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

## “Qəsbkarların qarşısı qətiyyətlə alınır”

- Əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir, - deyə zabit Şükür Həmidov bizimlə söhbətə başladı. - Gecə-gündüz bilmədən torpaqlarımızın keşiyində dayanan oğullar müqəddəs bir vəzifəni yerinə yetirirlər. Döyüş hazırlıqları yüksək səviyyədə olduğuna görə zabit və əsgərlərimiz atəşkəs rejimini pozan erməni işğalçılarına sarsıdıcı zərbələr vururlar. Artıq düşmən hər addımda qarşısında peşəkarlığı yüksək olan Azərbaycan əsgərinin dayandığını yaxşı anlayır. Bilir ki, cəbhə xətti onun üçün keçilməzdir.

Qərargahda çox ləngimədik. Zabit Seymur Həbibullayevlə birlikdə ön xəttə yola düşdük. Söhbət zamanı zabit bildirdi ki, şəxsi heyət həm döyüş, həm də mənəvi-psixoloji hazırlıqda yetərli uğurlara imza atır. Onlar bir həqiqəti yaxşı dərk edir ki, bu gün torpaqlarımızı düşməndən qorumaq vəzifəsi onların çiyinlərinə düşür. Hər kəs çalışır ki, üzərinə düşən vəzifəni daim cəsarətlə, hünərlə yerinə yetirsin. Əsgərlərimiz hər an qəhrəmanlıq və rəşadət göstərməyə qadirdirlər.



Söhbət yolumuzu xeyli qısaldır. Səngərlərə doğru uzanıb gedən yolun üstündə bizi mayor Rüstəm Bədəlov qarşılayır. Tabeliyində olan şəxsi heyətin döyüş hazırlığının yüksək olmasından, əsgərlərin vətənpərvərliyindən söz açıb bildirdi ki, Vətən torpaqları etibarlı qorunur.

Birlikdə yolumuza davam edirik. Dağların, dərələrin belinə kəmər kimi dolaşmış yollar bizi yurdumuzu qoruyan döyüşçülərin yanına gətirib çıxarır. Silahlı əsgərlər bütün diqqətlərini düşmən mövqelərinə yönəldiblər.

Səngərdə ilk həmsöhbətim taqım komandiri leytenant Ələkbər Ələkbərli oldu. Öyrəndim ki, iki ildən çoxdur ön xətdə xidmət edir, torpaqlarımızın keşiyində dayanır.



- Yurdumuzu qorumaq mənim üçün böyük şərəfdir, - deyir leytenant. - Vətən hər birimiz üçün müqəddəs və əzizdir. İşğal altında olan torpaqlarımıza baxdıqca erməni qəsbkarlarına nifrətim artır. Düşmən tapdağında olan dədə-baba ocaqlarımızı azad görmək ən böyük arzumdur. Bu arzunu reallığa çevirməyə hər dəqiqə hazırıq.

Döyüş postunda dayanıb düşmən mövqelərini müşahidə edən əsgərə yaxınlaşıb tanış oluram. Göygöl rayonundan ordu sıralarına çağırılmış Talıb İsgəndərov 10 aydır ki, xidmət edir.

- Düşmən mövqelərini daim nəzarətdə saxlayırıq, - deyə əsgər söhbətimizdə bildirir. - Bir dəyişiklik baş verən kimi bu barədə komandanlığı məlumatlandırırıq və sayıqlığımızı daha da artırırıq. Ermənilər atəşkəs rejimini pozmağa tez-tez cəhd göstərir. Amma biz sərrast atəş zərbələri ilə qəsbkarların bütün cəhdlərinin qarşısını qətiyyətlə alırıq. Düşmən gücümüzdən, qüdrətimizdən sarsılıb geri çəkilir.

Daha sonra ön xətdə yurdumuza keşik çəkən əsgərlərdən Tariyel Tağıyev, Taleh Mikayılov, Eldar Quluyev, Nəriman Məmmədov və başqaları ilə görüşüb söhbət etdim. Onlardan eşitdiyim xoş sözlərdən ürəyim sevinclə doldu. Bir daha əmin oldum ki, Vətən torpaqları etibarlı əllərdədir.

Üz-gözlərindən igidlik, mərdlik yağan qartal baxışlı döyüşçülərlə sağollaşıb ayrılıram. Onlar isə mövqelərində xidmətlərini davam etdirirlər...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edəcəklər

Noyabrın 22-dən 28-dək Tbilisi şəhərində (Gürcüstan) əməliyyat imkanları konsepsiyası proqramı çərçivəsində 1-ci özünü qiymətləndirmədə NATO nümayəndəsi qismində iştirak, noyabrın 23-dən 28-dək Tbilisi şəhərində (Gürcüstan) əməliyyat imkanları konsepsiyası qiymətləndirmə və təlim proqramı çərçivəsində 33-cü qiymətləndirici kursu üzrə işçi görüşü, noyabrın 23-dən dekabrın 2-dək Osterholts-Şarmbek şəhərində (Almaniya Federativ Respublikası) çoxmillətli təməl arxa xidməti kursu, noyabrın 23-dən dekabrın 4-dək Ankara şəhərində (Türkiyə) biliklərin idarə edilməsi və təkmilləşdirilməsi kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin də nümayəndələri iştirak edəcəklər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***23 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 94 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikası Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonu Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Yarımca, Göyarx, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Şıxlar, Novruzlu, Baş Qərvənd, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 99 dəfə atəş zərbəsi endirib.

***24 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 89 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikası Qazax rayonunun Qızılhacılı, Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 95 dəfə atəş zərbəsi endirib.

## “Adnkronos” agentliyi Dağlıq Qarabağ münaqişəsindən bəhs edən reportaj yayıb

İtaliyanın "Adnkronos" xəbər agentliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən reportaj yayıb.

Bakıda səfərdə olan müəllif Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək bildirir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi nəticəsində uzun illərdir Cənubi Qafqazda gərginlik hökm sürməkdədir. 1994-cü ildə tərəflər arasında atəşkəsə dair imzalanmış sənəd problemi kökündən həll etmədi, sadəcə münaqişə "dondurulmuş" halda qaldı. Münaqişə təkcə bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün üçün deyil, bütün Azərbaycan cəmiyyəti üçün ağır problemdir.

Reportajda Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun fikirlərinə də yer verilib: "Münaqişə 20 ildən çoxdur ki, dondurulmuş vəziyyətdə qalır və beynəlxalq ictimaiyyət hələ də bu məsələdə düzgün mövqe nümayiş etdirməkdə çətinlik çəkir. Dağlıq Qarabağ münaqişəsinə münasibətdə də Ukrayna böhranı zamanı göstərilən mövqe nümayiş etdirilməlidir. Biz yalnız belə olan halda bir nəticə əldə edə bilərik".

Müəllif Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin sözlərinə də yer verib: "Ermənistan tərəfi uzun illərdir münaqişənin nizamlanmasına dair konkret təkliflərə biganə yanaşır və cəzasızlıq sindromundan əziyyət çəkir. Avropa İttifaqı rəsmi Yerevanın danışıqlar masasında ciddi iştirakı üçün konkret sanksiyalar tətbiq etməlidir. Azərbaycan tərəfdaşları ilə birgə münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində səylə çalışır".

Reportajda diqqətə çatdırılır ki, Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində hər gün silah səsləri eşidilir, ölənlər və yaralananlar olur. Bununla belə sülh üçün hələ də ümid var.

## “Silahlı erməni təcavüzü: İtki və tələfatlarımız” mövzusunda tədbir keçirilib

***Noyabrın 18-də "Park İnn Baku" otelində Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun hesabat yığıncağı keçirilib.***

AZƏRTAC xəbər verir ki, "Silahlı erməni təcavüzü: İtki və tələfatlarımız" mövzusunda keçirilən tədbirdə İşçi Qrupunun rəhbəri, Milli Məclisin deputatı, professor Xanhüseyn Kazımlı müzakirə olunan mövzu ilə əlaqədar məruzə ilə çıxış edib. Məruzədə son iki əsrdə ermənilər və onların havadarları tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətindən söz açılıb. Bildirilib ki, XX əsrdə azərbaycanlılar dörd dəfə soyqırımı, təqib və deportasiyalara məruz qalıb, öz tarixi torpaqlarından didərgin düşüblər.

X.Kazımlı, erməni işğalı nəticəsində dəyən birbaşa maddi zərərlərin və ölkəmizin özünümüdafiə xərclərinin hesablanması istiqamətində artıq bir sıra işlərin görüldüyünü, ölkənin əqli mülkiyyətinə, tarix və mədəniyyət abidələrinə və mülki əhaliyə dəyən birbaşa zərərlərin müəyyənləşdirildiyini diqqətə çatdıraraq bildirib ki, qiymətləndirmə ardıcıl yanaşma metodu ilə aparılır.

# Bu inama güvən, Vətən!..

***Payızdı. Göy üzü dolub-boşalır... Dan yeri söküləni çisək başlayıb. Könüllər də bu gün göylərdən insaf umur; bir inama, bir güvəncə sayğıya həsəd aparırsan...***

***Bir azdan buludlar seyrəlir. Horadiz şəhər stadionuna tələsənlərin üzü gülür, narahatlığının qırışığı açılır. 23 il çəkən intizarın, həsrətin, sıxıntının yaxınlarda gerçəkləşəcək sonunun rəmzi kimi Günəş görünür.***

***Təbiətdə payızdı, arzularda, istəklərdə, murazlarda isə yaz. Şaxta ayaz səsini bir azdan "Sənə inanırıq, ölkə rəhbəri!.." - deyənlərin səsiylə qoşalaşdırmağa tələsənləri yolundan eləyə bilmir...***

***Təbiətin payızı bir azdan səmimiyyətlə, qürurla "sənə güvənirik, Vətən əsgəri!" - deyənlərə gözdolusu baxmağa, şimşəyə dönüb Horadizin o tərəfində çaxmağa, selə dönüb o səmtə axmağa təşnə olanlara uğur diləməyə tələsənlərin yerişini yavaşıda bilmir...***

Bu gün Horadizdə əməkdar incəsənət xadimi Abdulla Qurbaninin təxəyyülünün işığında "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!" - deyiləcək, kəlmə-kəlmə bütün məmləkət boyu yayılacaq. Düşmən də eşidəcək, biləcək ki, belə bir xalqın torpaqlarını işğalda saxlamağa cəsarəti çatmayacaq.

Horadizdə deyiləcək bu kəlmələr məmləkətin sərhədlərini də aşacaq, dost sevinəcək, qürurlanacaq, düşmən anlayacaq ki, ölkə rəhbərinə inanan, Vətən əsgərinə güvənən millətin torpaqlarından çıxmalıdı. Yoxsa can itirəcək. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Füzuli rayon İcra Hakimiyyəti ilə Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən kütləvi hərbi vətənpərvərlik tədbirinin mahiyyəti də budur.

Polkovnik Abdulla Qurbaninin ssenarisi əsasında inamla güvəncin vəhdətinin işığında bir sevgi bir boy da dikələcək. Bu, Vətən sevgisidi!..

Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev tədbir iştirakçılarını təbrik edir.

Millət vəkili Bahar Muradova tədbirin bilavasitə Vətənə ad edildiyini, məhz buna görə amalımızı ifadə etdiyini vurğulayaraq, hamının ölkə rəhbərinə inandığını, Vətən əsgərinə güvəndiyini bildirir...

General-leytenant Yaşar Aydəmirov toplaşanları Müdafiə nazirinin adından təbrik edir, inandığını bildirir ki, istər mülki əhali, istərsə də Silahlı Qüvvələrimizin şəxsi heyəti ölkə rəhbərinə inanır, əsgərinə güvənir. Vətən bu inama, bu güvəncə güvənir...

Abdulla Qurbaninin təxəyyülüylə gerçəkləşən, hər biri ayrılıqda vətənpərvərlik manifesti olan "Hər birimiz Vətən üçün bir əsgərik", "Ordu xalqın, xalq ordunun dayağı" kimi tədbirlərin mənəvi hərarəti duyulmaqdadı; Vətən sevgisinə pərvanə könüllər bugünkü tədbirə can atır... Bu tədbir bir qədər fərqli tədbirdi. Bu tədbir ssenari müəllifinin bədii təxəyyülü ilə həm duyğulara, həm də düşüncəyə hesablanıb.



Aparıcıların - Abdulla Qurbaninin və xalq artisti Pərvanə Qurbanovanın təqdimatıyla tədbirin mahiyyəti kəlmə-kəlmə açılır: xalq rəhbərinə inanır, xalq ordusuna güvənir. Tədbirə gələnlərin baxışlarında bu inamı sezmək çətin deyil. Bu inam dönməz inamdı.

Nələr deyir aparıcılar?

1993-cü ilin dekabrına kimi burda gedən döyüşlər xatırlanır: burda hər daşa, hər çiçəyin ləçəyinə qan çilənib, evlərin divarları güllə-güllə, qəlpə-qəlpə yaralanıb, yüzlərlə oğul şəhid olub..."...

Nələr deyir aparıcılar?

1994-cü ilin yanvarında Horadiz, neçə-neçə kənd azad edilib...

Bura cəbhə bölgəsidi. Buranın gündüzü ki, gündüzdü, elə gecəsi də gündüz kimidi; "burda əsgərlər gecəli-gündüzlü keşik çəkir səngərlərdə.

Şeir, şeiriyyət duyğulara daha həssaslıqla təsir göstərir. Elə mətləblər var ki, onu məhz bu şəkildə, məhz bu biçimdə çatdırmaq lazımdı. Ssenari müəllifi tədbirin mahiyyətinin daha miqyaslı olduğunu nəzərə alaraq şeirin imkanları hesabına toplaşanlara xatırladır ki:

Dolan bulud,  
Yağan yağış,  
Çaxan şimşək.  
Qan ələndi  
Çöl-çəmənin çiçəyinə,  
Qan ələndi  
Hər çiçəyin ləçəyinə  
Horadizdə.

Horadiz stadionu toplaşanlara darlıq edir. Səsini "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!" deyənlərin səsinə qatmaq istəyənlər çoxdu. Hələ gəlməyə imkanı olmayanlar, hələ uzaqlarda olduğundan tədbiri könlünün gözüylə izləyənlər, - ürəyi burda qalanlar...

Tədbir teatrlaşdırılmış, kinolaşdırılmış formatda hazırlandığından səslə ifadə edilən fikirlər iri ölçülü monitorda göstərilir; görüntülər deyilənlərin təsdiqi olur.

Camaatın tünlüyündə bir ağsaqqal da var. Yaş yerişini bir qədər ləngitsə də ürəyinin təpəri çəkib aparır onu. Ayaq saxlayır. Əsgərlərimizi gözdolusu süzür. Yanağında iki damla yaş görünür. Qəhər yaşıdımı, qürur yaşıdımı - hələ bilmirəm. Bir azdan öyrənəcəm ki, oğlu da, nəvəsi də Horadiz uğrunda gedən döyüşlərdə şəhid olub. Bu ağır itkilərə dözüb. Füzulinin azad ediləcəyi ümidiylə dözüb, ölkə rəhbərinə inamıyla dözüb, Vətən əsgərinə güvənciylə dözüb. Yüzlərlə ata kimi gecələrindən səhərlərinəcən çəkən ümidi bu inamın, bu güvəncin vəhdəti olub. Oğul əvəzi, nəvə əvəzi bu inamı əzizləyib, bu inama oğul deyib, nəvə deyib. Döyüşlər başlayanda oğlu əvəzindən, nəvəsi əvəzindən onun da inamı döyüşəcək.

Füzuli uğrunda gedən döyüşlərdə yüzlərlə oğul şəhid olub. Aparıcılar Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülənləri şeirin qüdrətiylə təqdim edir, böyük ehtiramla, dəruni sevgilərlə bir daha onları tanıdır. O oğullar ruh qiyafəsində görünürlər. Necə döyüşdükləri 10-12 misraya sığışdırılan fikirlərlə. Vətən sevgisinə söykənən, Vətən sevgisindən süzülüb gələn bu misralar duyğusalların gözlərindən yaş dərir. Ağ paltarda görünən qəhrəmanların dediklərini bir vəsiyyət, bir nəsihət bilir tədbir iştirakçıları: "Sevin Vətəni, qoruyun Vətəni. Ölkə rəhbərinə inanmaqla qoruyun, Vətən əsgərinə güvənməklə qoruyun". Ürəklərin titrəyişi stadion boyu dalğalanan bayraqların titrəyişinə qarışır...

Naməlum əsgər görünür. Döyüşlərdə igidliklə vuruşan, sonda şəhid olan, kimliyini hələ ki, dəqiqləşdirmək mümkün olmayan neçə-neçə oğul da olub. O oğullar da ehtiramla xatırlanır. Aparıcıların təqdimatında adı-soyadı məlum olmayan qəhrəmanı (qəhrəmanları) görüncə itkin oğul anası öz oğlu bilir onu. Anaların "Can bala!" harayını necə eşitməyə bilərsən?..

Aparıcının

Horadiz unutmur,  
qardaşım, səni,  
Qəlblərdə yaşamaq  
deyildir asan.  
Torpaq gizlətsə də  
ad-soyadını,  
Məlum qəhrəmanlar  
sırasındasan! -

müraciətindən sonra o da qəhrəmanların sırasında dayanır. Bu, böyük bir mətləbin görüntüsüdü: Vətən uğrunda canından keçənlərin son mənzili ürəklərdi...

Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. Analar oğullarını hərbi xidmətə öyüd-nəsihətlə yola salır. Oğullarını uğrulayan analar görünür. Oğlunu hərbi xidmətə Ana adının qüdrətiylə, Vətənin adıyla yola salır.

Aparıcılar bir az əvvəl Horadizin 1993-cü ilin sonlarından söz açmışdılar. İri monitorda o günlərin görüntüləri toplaşanları 22 il əvvələ qaytarmışdı: yanan evlər, mərmi partlayışları, döyüşlər. Hər daşa, hər gülə-çiçəyə qan çilənmişdi o döyüşlərdə. Şəhidlərin ruhu inamla deyir ki, bu qan bizi qələbəyə aparacaq. "Bizi" kəlməsindən ürəyim gizildəyir - şəhidləri də torpaqlarımızı işğaldan azad edəcək oğulların sırasında olan xalqa zaval yoxdu! Zaval yoxdu!..

Bayram ovqatlı tədbirdi. Bu ovqatın cəfakeşi Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının solistləri, rəqqaslarıdı. "Bayram süitası"nın çılğınlığını gözlərimizə köçürməkdəykən iki tankçı da onlara qoşulur. Neçə aylar əvvəl Abdulla Qurbaninin "Ordu xalqın, xalq ordunun dayağı" deviziylə bir tədbir keçirilmişdi. O tədbirin mahiyyətini görürük bu məqamda. Bu rəqsin ümumi ahəngi təsdiqləyir ki, həqiqətən ordu xalqa, xalq orduya güvənir.

Müxtəlif hərbi hissələrdə xidmət edən füzulili əsgərlərin gəlişi bayaqkı kövrəkliyə təsəlli olur elə bil. O əsgərlərin analarının qürurunu sezməmək, görməmək mümkün deyil; anaların qoşa qolları əsgər oğulların kürəyində çarpazlaşır. Analar oğullarına nəsə deyir. "Südüm halalın olsun, ay oğul!" deyirlər yəqin. Bir də "Boyuna qurban olum!" - deyirlər. Bunlar gümandan çox həqiqətdi - düşünürəm.

Azərbaycan şeirinin Füzulisinin gəlişi Horadiz stadionunu duyğusallığıyla ləngərləndirir. Zamanında "kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz" deyən qüdrətli söz sərkərdəsi sözlə silahın, əqidəylə silahın, inamla güvəncin vəhdətinin dönməzliyini xatırladır. "Məni də sıranızda bilin" - deyir böyük Füzuli. "Ruhum həmişə sizinlə olub...":

Zaman-zaman  
Sözlərimdən düşən işıq  
Nur olubdu millətimin  
Gözlərinin qarasına.  
Döyüş günü mənim ruhum  
Döyüşçütək qatılacaq  
Oğulların sırasına!

İkiqat paralimpiya çempionu, I Avropa Oyunlarının qalibi İlham Zəkiyev sürəkli alqışlarla qarşılanır. Zamanında o da əsgər olub. Zamanında o da ömrünü torpaqlarımıza səngər bilib. Döyüşlərin birində ağır yaralanıb, gözünün nurunu itirib. İdmançı kimi mötəbər yarışlarda Azərbaycan bayrağını ucalıqlarda dalğalandırıb. I Avropa Oyunlarında dalğalandırdığı bayrağı Horadizdə əsgərlərə təqdim eləyib, "Bu bayrağı sizə qələbə bayrağı kimi verirəm. İşğaldan azad edəcəyiniz torpaqlarımızda dalğalandırarsınız!..". Bir az əvvəl xüsusi təyinatlıların çıxışını izləmişdik. Onda əsgərlərimiz piramida-qala yaratmışdı. Sonuncu əsgər o piramida-qalanın ucalığında bayraq dalğalandırmışdı. Bu bayraq İlham Zəkiyevin əmanət verdiyi bayraqmış. Sonra xatırlayacam ki, o bayraq tamam ayrı biçimdə dalğalanırdı...

İcra Hakimiyyətinin qərarı ilə İlham Zəkiyev Füzulinin fəxri vətəndaşı seçilib. Ona bu qərarın rəsmi sənədini İcra Hakimiyyətinin başçısı Alı Alıyev təqdim edir. İlham onu alqışlayanları könlünün gözüylə görür. Görür ki, Vətən üçün döyüşənlər hamının əzizidi...

Tədbir başa çatır...

Tədbir şərti olaraq başa çatır. Az sonra bütün məmləkət boyu bir kəlam eşidiləcək: "sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik Vətən əsgəri!"...

...Bir az əvvəl göy üzündə bir əlçim bulud göründü. Yoxdu o bulud. O bulud Horadizin o üzünə sarı çəkilib. O buludu orda, bu kəlamın qüdrəti dağıdacaq. Az qalıb. O bulud da dağılacaq!..

**Rəşid HÜSEYNOV,**  
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Belçikada antiterror əməliyyatında 16 nəfər saxlanılıb




Belçikada polis və ordu hissələrinin keçirdiyi antiterror əməliyyatı zamanı 16 nəfər saxlanılıb.

Bu barədə Euronews telekanalı məlumat yayıb. Əməliyyat Parisdə baş verən terror hadisələrinin təhqiqatı məqsədilə keçirilib. Lakin axtarışda olan əsas günahkarı həbs etmək mümkün olmayıb.

Belçika hökuməti ölkədə ən yüksək terror təhlükəsi səviyyəsi elan edib. Bu gün insanların ən çox toplaşdığı ictimai yerlər və məktəblər bağlı olacaq.

### AKP-nin nümayəndəsi Türkiyə parlamentinin sədri seçilib



Türkiyədə Böyük Millət Məclisinin sədri vəzifəsinə Ədalət və İnkişaf Partiyasının (AKP) nümayəndəsi seçilib.

Sədrin adı səsvermənin üçüncü turunda məlum olub. AKP-nin parlamentə İstanbuldan seçilən deputatı İsmayıl Kahraman parlamentin yeni spikeri olub. O, səsvermədə 316 səs toplayıb.

### İtaliya naziri ölkə müsəlmanlarına təşəkkür edib



İtaliyanın xarici işlər naziri Paolo Centiloni "Facebook" və "Twitter" hesablarından bu ölkədə yaşayan müsəlmanların Romada və Milanda terrorizm əleyhinə etiraz aksiyaları keçirmələrinə münasibət bildirib. O yazıb: "Terrorizmə qarşı öz etiraz səslərini yüksəldən İtaliya müsəlmanlarına minnətdarıq. Yaşadığımız bu mürəkkəb mühitdə küçələrə axışmaq heç də asan deyil. Bu baxımdan nümayişin təşkilini yüksək qiymətləndirirəm".

Qeyd edək ki, Parisdə baş vermiş silsilə terror aktlarına etiraz əlaməti olaraq İtaliyada yaşayan müsəlmanlar ilk dəfə olaraq terrorizmə qarşı milli nümayişlər keçiriblər. Onlar "İraq və Şam İslam Dövləti" (İŞİD) adlandırılan terrorçu qruplaşmanı "insanlığın xərçəngi" adlandıraraq "İŞİD-ə yox", "Terrorizmə yox" şüarları səsləndiriblər. Nümayişçilər terrorizmin İslam dini ilə əlaqələndirilməsinin qəbuledilməz olduğunu bildiriblər.

### Pekinin yeni aeroportunun buraxıcılıq qabiliyyəti artaraq ildə 100 milyon sərnişinə çatacaq



Pekinin yeni aeroportunun buraxıcılıq qabiliyyəti artaraq, 2040-cı ildə 100 milyon sərnişinə çatacaq.

Sentyabrın sonunda Pekinin yeni aeroportunun 700 min kvadratmetr sahəni əhatə edən terminalının tikintisi başlanıb.

Gözlənildiyinə görə, aeroportun planlaşdırılan yeddi uçuş-enmə xəttindən dördü 2025-ci il üçün istifadəyə veriləcək. Bu zolaqlar ildə 620 min təyyarənin havaya qalxıb enməsinə xidmət edəcək. Yeni aeroportun illik buraxıcılıq qabiliyyəti 70 milyon sərnişin və 2 milyon ton yük təşkil edəcək. Sərnişin dövriyyəsinin həcmi artaraq ildə 100 milyon nəfərə çatacaq, yeni hava limanından keçən yük dövriyyəsi 4 milyon tonadək artacaq. Həmin vaxtadək yeddi uçuş-enmə zolağının hamısını işə salmaq planlaşdırılır. Yeni aeroport Pekinin cənubunda Dasin rayonunda yerləşir. Onun tikintisinə 2014-cü ilin dekabr ayında başlanılıb.

### Sudanda 2 milyona yaxın uşaq aclıq çəkir



Sudanda 5 yaşdan aşağı 2 milyona yaxın uşaq qida çatışmazlığından əziyyət çəkir.

UNICEF-in Sudan üzrə nümayəndəsi Qeyrat Kabilarinin bəyanatında bildirilir. Onun məlumatına görə, aclıqdan əziyyət çəkən uşaqların sayı 38 faizə çatır. Həmçinin qeyd olunur ki, onlardan 550 mini ölüm ayağındadır. Bu uşaqların əksəriyyəti Sudanın kasıb şərq rayonlarında, Qırmızı dəniz ştatında yaşayır. UNICEF Sudan dövlətini və dünya ölkələrini humanitar yardımları artırmağa çağırıb.

### Argentinada yeni prezident seçilib



Argentinada keçirilən prezident seçkilərində "Respublika təklifi" partiyasının nümayəndəsi Maurisio Makri qalib gəlib.

Bülletenlərin 98 faizinin hesablanmasından sonra hakim partiyanın nümayəndəsi Daniel Sioli 48,56, Maurisio Makri isə 51,44 faiz səs toplayıb.

Sioli artıq rəqibini təbrik edib və prezident postunda ona uğurlar arzulayıb. Bundan əlavə, yeni prezidenti hazırkı dövlət başçısı Kristina Fernandes de Kirşner, həmçinin Meksika və Paraqvay prezidentləri də təbrik ediblər. Argentinada ilk dəfədir ki, prezident seçkilərinin nəticələri ikinci turda müəyyən olunur. Seçkilərin oktyabrın 25-də keçirilən birinci turunda Daniel Sioli 37,08, Maurisio Makri isə 34,12 faiz səs toplamışdı.

### Sakit okeanda əmələ gəlmiş Nişinoşima adası böyüməkdə davam edir



Yaponiya Sahil Mühafizəsi Xidmətinin nümayəndələrinin bildirdiyinə görə, Sakit okeanda püskürmə nəticəsində iki il əvvəl əmələ gəlmiş Nişinoşima adasının ərazisi 12 dəfə böyüyərək 2,64 kvadratkilometrə çatıb. Xidmətin əməkdaşları noyabrın 17-də Oqasavara adalar qrupuna daxil olan və Tokiodan təxminən min kilometr cənubda yerləşən Nişinoşima adasını havadan müşahidə ediblər.

Xidmətin məlumatında bildirilir ki, adanın mərkəzində lava axını və partlayışlarla müşayiət olunan fəal püskürmə davam edir.

**AZƏRTAC-ın materialları əsasında**



# Xoş sözə layiq olanlar

Müqəddəs işlərdən biri də yol çəkmək, körpü salmaqdır. Bu mənada "N" hərbi hissəsinin şəxsi heyəti müqəddəs bir işlə məşğuldur. Onlar texnikaların köməyi ilə yol çəkirlər. Narahat yerlərə, çala-çuxurlara beton döşəyirlər.

Zabit Tofiq Orucov bu sahədə çalışan zabit və əsgərlər haqqında xoş sözlər dedi. Bildirdi ki, bir müddət əvvəl yol texniki taborunun mühəndis-texniki bölüyünün şəxsi heyəti təlim mərkəzinə yol çəkib, komanda-müşahidə məntəqələrini abadlaşdırıblar. Təlim mərkəzinin açılışında Müdafiə naziri general-polkovnik Zakir Həsənov görülmüş işlərdən razı qaldı. Tapşırığı bacarıqla yerinə yetirən hərbi qulluqçulara təşəkkür elan edib. Şəxsi heyət bundan ruhlanaraq xidməti vəzifələrinə daha məsuliyyətlə yanaşır.

Zabit Hümmət Bəndiyevlə birlikdə mühəndis-texniki bölüyünün şəxsi heyəti ilə görüşmək üçün parka yollandıq.

- Hərbi hissənin şəxsi heyəti üzərinə düşən tapşırıqları həmişə peşəkarlıqla yerinə yetirməyə çalışır, - dedi zabit Hümmət Bəndiyev. - Yaxşı iş həmişə üz ağardar deyiblər. Zabit və əsgərlərimiz də həmişə nümunəvi xidmətləri ilə komandanlığın başını uca edirlər. Onların ünvanına hər vaxt xoş sözlər eşidirik.

Zabitlərdən kapitan Zaur İsgəndərov, baş leytenant Müşfiq Quluyevlə görüşüb söhbət etdik. Kapitan bildirdi ki, üzərimizə düşən tapşırıqları həmişə bacarıqla yerinə yetirməyə çalışırıq. Bölüyümüzün şəxsi heyəti bir müddət əvvəl uğurla başa çatan Komanda Qərargah Oyunlarında da komandanlığın qarşıya qoyduğu tapşırıqları peşəkarlıqla yerinə yetirdi. Bölüyümüzün şəxsi heyəti istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır.

Zabit xidməti ilə seçilən əsgərlərdən Güman Süleymanov, Murtuz Həsənov, Yelmar Şirinov, Fərid Rəsulov, Əhliman Fətullayev, Sahil İsmayılov, Mərifət Nuruyev, Səfa Nəbizadə, Vüqar İzzətli, Qubad Quluyev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elman Məmmədov və başqalarının adlarını çəkdi, onların xidmətlərindən ağızdolusu danışdı.

**Mayor**  
**Vahid MƏHƏRRƏMOV,**  
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# İnsanın sağlamlığı cəmiyyətin sərvətidir

***Həkim! Bu peşənin adı çəkiləndə hər birimizin ürəyində fərəh hissi yaranır. İnsanın sağlamlığını cəmiyyətin sərvəti adlandıran ümummilli liderimiz Heydər Əliyev tibb sahəsinə daim böyük önəm verirdi. Ölkəmizdə hazırkı yüksək tibbi şərait məhz onun uzaqgörən siyasətinin nəticəsidir.***



Baş Kliniki Hospitalın tibbi reabilitasiya bölməsindəki səliqə-sahman, qayğıkeş tibb işçilərinin xoş münasibəti hər kəsə könül xoşluğu verir. İnsanların sağlamlığı keşiyində dayanmağı özünə həyat amalı bilən həkimlərimiz xəstələrlə nəvazişlə davranırlar. Onları səbrlə dinləyib, dəyərli məsləhətlər verir, düzgün müalicə üsulları seçir, dərdlərinə şərik olurlar.

Faiq Nəsibov tibb xidməti polkovnik-leytenantıdır. Hazırda tibbi reabilitasiya bölməsinin rəisidir. Uzun illərdir bu sahədə xidmət edir. Təcrübəli həkim dövlət rəhbərliyinin orduya, hərbçilərimizə olan diqqətindən, qayğısından qürur hissi ilə söz açaraq "Bölmə müasir avadanlıqlarla təmin olunub və tibbi heyət tam komplektləşdirilib. Xəstələrə tibbi yardım göstərilməsi üçün bütün imkanlar mövcuddur. Hərbçilərin, onların ailə üzvlərinin və mülki vətəndaşların qulluğunda durmağa daim hazırıq", - dedi.

Bölmənin baş ordinatoru ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Rəşid Muradov araşdırmaları ilə uğur qazanıb, tibb üzrə fəlsəfə doktorudur. İnstitutu bitirdikdən sonra yeddi il Rusiya Federasiyasında işləyib. 1992-ci ildə Vətənimizin ağır, qanlı-qadalı günlərində xalqına-millətinə olan sevgi onu geri dönməyə məcbur edib. Vətəninə, xalqına qəlbən bağlı olan həkim doğma yurda döndükdən sonra könüllü hərbi xidmətə başlayıb.

Rəşid həkim söhbət zamanı həkimlik sənətinin xeyirxahlığından, nəcibliyindən danışdı, hərbi qulluqçularımızın sağlamlığı keşiyində dayanmağı özünə müqəddəs borc bildiyini dedi. Onun gözlərindəki həyat eşqi adama ilk baxışdan xoş ovqat aşılayır. Bəli, həkim belə olmalı, ən ağır xəstənin də qəlbində sabaha inam, ruh yüksəkliyi yaratmalıdır.

Həkim Nəzakət Nəsirovanın da xəstələrə diqqətini, mehribanlığını hiss edəndə yadıma bir deyim düşdü: "Həkimin bir saatda etdiyi əməliyyatdan xəstə illərlə danışar". Söz yox ki, onun xəstəsi olanlar zaman keçsə də, həkimi xoş minnətdarlıqla xatırlayacaqlar.

Bölmənin gənc həkimlərindən olan Tural Kazımlı öz üzərində çox çalışdığını, Turkiyədə fizioterapiya kursu keçdiyini, hazırda səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdığını, əhalinin etibarlı müalicəsinə imkan verən müasir tibbi avadanlıqlarla təchiz edildiyini bildirdi, xəstələrinin müalicəsində istifadə etdiyi müasir üsullar haqqında geniş məlumat verdi.

Zahirə Məmmədova, Solmaz Məmmədova, Taciyə Ağayeva bölmənin tibb bacılarıdır. Palataları gəzərkən onların xəstələrə olan xoş rəftarının şahidi olduq. Zahirə xanım on ildən çoxdur bu bölmədə işləyir. O hərbçi ailəsidir, başqa tibb bacıları kimi xəstələrə əlindən gələn köməyi əsirgəmir. Onlara dəyərli məsləhətlərini verir.

Xəstələrlə də söhbət etdim. Onlar yaradılan şəraitdən, həkimlərin, tibb bacılarının diqqətindən, qayğısından ağızdolusu danışdılar, minnətdarlıqlarını bildirdilər. Güclü bir dövlətin vətəndaşı olmaqdan qürur hissi keçirdiklərini söylədilər.

**Leytenant**  
**Günay TAĞIYEVA,**  
**"Azərbaycan Ordusu",**  
**foto**  
**kiçik çavuş**  
**Namiq PƏNAHOVUNDUR**

# "Hər kəsin vətəndaşlıq mövqeyi olmalıdır"

## Ekstremal şəraitdə işləyən jurnalistlərin təlimi davam edir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 sentyabr 2014-cü il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncamından irəli gələn tələblərlə bağlı Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin "Ekstremal şəraitdə fəaliyyət göstərən jurnalistlərin psixoloji hazırlanması və təcrübi öyrədilməsi" adlı birgə layihəsinin keçirilməsi prosesi davam edir.***



İllərlə bu layihənin gerçəkləşməsinə çalışdığını söyləyən "Dinc Dünya" Araşdırma Mərkəzinin İdarə Heyətinin sədri Əlisafa Mehdiyev bildirdi ki, müəllifi olduğu layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, Müdafiə Nazirliyi, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi və Mətbuat Şurasının köməkliyi ilə təşkil olunub. Milli Təhlükəsizliyə xələl gətirən informasiyaların yayılmasının qarşısının alınması və dövlət sirri təşkil edən hərbi məlumatların qorunması məsələlərini əsas istiqamət seçən ictimai qurum "Ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" layihəsi üzrə təlimi davam etdirir. Müdavimlərin ayın əvvəlindən başlanan tədris-təlim məşğələləri Müdafiə Nazirliyinin dəstəyi ilə yüksək şəraitdə həyata keçirilir.

Qeyd edim ki, Müdafiə Nazirliyinə akkreditasiya üçün təklif edilmiş 60 nəfərə yaxın reportyor, operator-müxbir və BDU-nun jurnalistika fakültəsinin fərqlənmiş tələbələri təlimlərə cəlb edilib. O cümlədən işçi qrupunun üzvləri də keçirilən təlimlərdə fəal iştirak edir. Müdafiə nazirinin əmrinə əsasən, yaradılan işçi qrupunun rəhbəri Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı, Təlim və Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən polkovnik Hilal Nəcəfov, Hərbi Təhsil İdarəsinin şöbə rəisi polkovnik Nizami Əliyev və Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev təlimlərin yüksək səviyyədə keçirilməsinə nəzarət edir, nəzəri və təcrübi məşğələlərin keçirilməsində öz köməklərini əsirgəmirlər. "Ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" layihəsinin Müdafiə Nazirliyi ilə birgə keçirilməsinin əhəmiyyətindən danışan zabitlər birmənalı şəkildə bildirdilər ki, ordumuzun müharibə şəraitində olması, cəbhədə atəşkəs rejminin tez-tez pozulması hallarının baş verməsi ilə bağlı ilginc məlumatların lazımi səviyyədə ictimaiyyətə çatdırılması məhz jurnalistlərin peşəkarlıqlarından asılıdır. Artıq akkreditasiya qaydaları müəyyən edildikdən sonra konkret olaraq KİV nümayəndələri seçilib təsdiqlənəcək.

"Azərbaycan Ordusu" qəzetinin, Sənədli və Tədris Filmləri Kinostudiyasının nümayəndələri tərəfindən təlimlərdə foto və video çəkilişləri aparılır. Layihənin təşkili və əhəmiyyəti barədə mətbuatda mütəmadi yazılar dərc edilir.

Noyabrın 20-21-dəki seminar təlimlərdə "Ekstremal situasiyalar" mövzusunda debatlar aparıldı. İki gün geniş mühazirələr keçirildi. Birinci günün mövzusu "Probleme giriş. İnformasiyanın gərəkliliyi və təhlükəsi" adlanırdı. İlk olaraq Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış edərək "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" ölkə başçısının sərəncamından irəli gələn tələblərə toxundu. "Bu gün dünyanı informasiyasız təsəvvür etmək mümkün deyil. Dünyanın lider dövlətlərindən olan ABŞ-da informasiya briqadası var. Bütün ölkələr haqqında informasiya bu briqadada toplanır, onlar tez-tez yenilənir və dövlətin milli maraqlarına xidmət edir. Keçən il avqustun əvvəllərində Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat diversiya qruplarının hücum cəhdləri nəticəsində cəbhədə yaranan gərginliklə əlaqədar bəzi media orqanlarının biləərəkdən və ya bilməyərəkdən yaratdığı çaşqınlıq ölkədə informasiya təhlükəsizliyinin pozulmasına gətirib çıxardı. Həmin ərəfədə bəzi internet resursları, onlayn xəbər portalları "fəal" görünsələr də, bir çox media qurumlarında və mətbuat səhifələrində ordumuzun gücünü, peşəkarlığını əks etdirən yazılar dərc olunurdu. Hər kəsin qələbə xəbərinə ehtiyacı var. Ərazi bütövlüyümüzün təmin edilməsi ilə bağlı mübarizə ruhu, vətəndaşlıq hissləri açıq-aydın hiss olunurdu. Hətta o zaman bəzi informasiyalar cəmiyyətdə yüksək döyüş əhval-ruhiyyəsi yaratmışdı. Mətbuat Şurası olaraq yaranmış durumla bağlı monitorinqlər keçirərək KİV nümayəndələrini dövlətin maraqlarını təmin etməyə, peşə fəaliyyətlərini müharibə şəraitinə uyğun yerinə yetirməyə, hərbi yönümlü informasiyaya həssaslıqla yanaşmağa və əsl vətəndaş mövqeyi nümayiş etdirməyə çağırdıq".

Mətbuat Şurasının sədri keçən ilin avqustun 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sədrliyi ilə keçirilən müşavirədən də ətraflı söhbət açdı.

- Mətbuat Şurası bu müşavirədən irəli gələn tələb və vəzifələrlə bağlı "Azərbaycanın informasiya təhlükəsizliyi media müstəvisində" adlı konfrans keçirdi, - deyə Əflatun müəllim 1994-cü ildə qəbul olunmuş "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyasına və 1998-ci ildə qəbul edilən "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsinə dair təkliflərin hazırlanmasına dair fikirlərini bölüşdü.

Sonra tədbirdə Hərbi Akademiyanın professoru polkovnik Bəbir Quliyevin "İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik sistemində" mövzusu üzrə mühazirəsi dinlənildi. Polkovnik qeyd etdi ki, dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi vacib amillərdən biridir. 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkəmizdə informasiya təhlükəsizliyi siyasətinin həyata keçirilməsindən bəhs edən, respublikamızda informasiya sahəsində əsas milli maraqları şərtləndirən polkovnik Bəbir Quliyev məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması, yayılması kimi hallarda vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsinə dair digər məqamlara da toxundu.

BDU-nun jurnalistika fakültəsinin dosenti Akif Rüstəmov "İnformasiya siyasəti, informasiya təhlükəsizliyi, informasiya savaşı" mövzusunda çıxış edərək bildirdi ki, qloballaşan dünyamızda cərəyan edən hadisələr sosial həyatı durmadan dəyişir. "Cəmiyyətin informasiyaya olan tələbatı informasiya cəmiyyətində indiki qədər aktual olmayıb. İnformasiya hazırlayan hər kəsin vətəndaşlıq mövqeyi olmalıdır. Təkcə informasiyanı verməklə iş bitmir, yaşadığın ölkənin milli mənafeyini qorumalı, onun informasiya siyasətini müdafiə etməlisən. A.Rüstəmov çıxışının sonunda tövsiyə etdi ki, məhz jurnalistlər Azərbaycanın haqq səsini dünyaya çatdırmalı, antiazərbaycan təbliğatı aparanlara tutarlı cavablar verməlidirlər.

BDU-nun beynəlxalq jurnalistika kafedrasının dosenti Vüqar Zivəroğlu isə "Müasir dövrdə media manipulyasiya və informasiya müharibəsi" mövzusu üzrə mühazirə oxudu. O informasiya müharibəsinin başlıca xüsusiyyətlərindən və hədəflərindən danışdı.

Hərbi Akademiyanın dosenti Zəfər Kərimovun da "Qloballaşma şəraitində informasiya amili və milli təhlükəsizlik" adlı məruzəsi dinlənildi.

Jurnalist Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərlinin "Ekstremal vəziyyətlərdə birbaşa informasiyanın alınması və yayılması prinsipləri" mövzusundakı mühazirəsi də maraqla qarşılandı.

İkinci debat günündə Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi, işçi qrupunun rəhbəri polkovnik Vaqif Dərgahlı akkreditasiya qaydayaları haqqında ətraflı çıxış etdi. O, Nazirlər Kabinetinin 14 avqust 2015-ci il tarixli "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılmış qaydası"nın təsdiq edilməsi barədə qərarı ilə hər bir jurnalistin tanış olmasının vacibliyini diqqətə çatdırdı.

"Məhdud informasiyalar - sirlər" haqqında danışan Ələsgər Məmmədli ekstremal jurnalistika ilə məşğul olan KİV nümayəndələrinə qanunlardan və hüquqi normativ aktlarından yararlanaraq hüquqi biliklərə yiyələnməyi tövsiyə etdi.

Tədbir öz işini davam etdirir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Azərbaycan güləşçiləri "Day of children" beynəlxalq turnirində uğurla çıxış ediblər



Tehranda kiçik yaşlı yeniyetmə güləşçilər arasında "Day of children" beynəlxalq turniri keçirilib. Turnirdə kiçik yaşlı yeniyetmələrdən ibarət sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycanın yığma komandasının üzvləri də mübarizə aparıblar. Turnirdə yunan-Roma güləşçilərimiz ikinci, sərbəst güləşçilər isə üçüncü pillədə qərarlaşıblar.

Komanda xarakteri daşıyan turnirdə yunan-Roma güləşçilərimiz qrupda İran (6:4), Türkmənistan (10:0), Tacikistan (8:2) və Qırğızıstan (8:2) yığmalarını məğlub edərək finala yüksəliblər. Finalda İranın digər komandası ilə qarşılaşan yığmamız görüşü 5:5 hesablı bərabərliklə tamamlayıb. Texniki üstünlük rəqibdə olduğundan yığmamız turnirin gümüş medalı ilə kifayətlənib. Sərbəst güləşçilər isə İraq və Gürcüstan pəhləvanlarını 9:1 hesabı ilə məğlub edib, İran komandasına 4:6 hesabı ilə uduzaraq qrupu ikinci sırada tamamlayıblar. Bu nəticə ilə yığmamız digər qrupun ikincisi olan daha bir İran komandası ilə bürünc medal uğrunda görüşə çıxıb. Hesab 5:5 olsa da, texniki cəhətdən üstün olan komandamız görüşü qalib başa vurub və turnirin bürünc medalına yiyələnib.

Görüşlərin idarə edilməsində beynəlxalq dərəcəli hakim Hüseynağa Əhmədov ölkəmizi təmsil edib.

## Azərbaycanlı ağır atlet iki dünya rekordunu yeniləyərək qızıl medal qazanıb



Azərbaycan idmançısı Boyanka Kostova ABŞ-da keçirilən ağır atletika üzrə dünya çempionatında iki dünya rekordu yeniləyərək qızıl medala sahib olub. Atletimiz 252 kiloqram (112+140) nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Turnirdə 58 kiloqram çəki dərəcəsində çıxış edən Boyanka Kostova birdən qaldırma yarışlarında və ümumi nəticədə yeni dünya rekordu müəyyənləşdirib. Əvvəllər dünya rekordu çinli Çen Yanıçinə məxsus idi. Dünya çempionatında çinli Den Menjun gümüş, tayvanlı Kuo Sin Çun isə bürünc medal qazanıblar. Boyanka Kostovadan əvvəl milli komandamızın üzvü Valentin Xristov (62 kq) bürünc medala sahib olmuşdu.

Qeyd edək ki, çempionat şəxsi və komanda hesabında "Rio-2016" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

## Ədliyyə işçilərinin peşə bayramına həsr olunmuş veloyürüş keçirilib



Ədliyyə orqanlarında 22 noyabr - peşə bayramı günü münasibətilə tədbirlər təşkil edilib. Bu münasibətlə ədliyyə orqanlarında çalışan idman həvəskarlarının təşəbbüsü ilə veloyürüş keçirilib. Nazirliyin mərkəzi aparatı və Penitensiar xidmət əməkdaşlarından ibarət velosipedçilər dəstəsinin iştirak etdiyi yürüş Dövlət Bayrağı Meydanından start götürüb və Heydər Əliyev Mərkəzinin qarşısında başa çatıb. Velosiped İdmanı Federasiyasının çoxsaylı üzvləri də yarışda iştirak ediblər.

## Paralimpiyaçılarımız pauerliftinq üzrə lisenziya xarakterli açıq Avropa çempionatında iştirak edirlər



Macarıstanın Eger şəhərində paralimpiyaçılar arasında pauerliftinq üzrə açıq Avropa çempionatı keçirilir.

Azərbaycan Milli Paralimpiya Komitəsinin pauerliftinq idman növü üzrə yığma komandası da lisenziya xarakterli turnirdə iştirak edir. Açıq Avropa çempionatına noyabrın 30-da yekun vurulacaq.

Qeyd edirik ki, cari ilin iyulunda Qazaxıstanda keçirilən açıq Asiya çempionatında 107 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Elşən Hüseynov dünya rekordunu yeniləyərək bu idman növü üzrə "Rio-2016" Yay Paralimpiya Oyunlarına lisenziya qazanmışdı.

## Azərbaycan cüdoçuları Koreya Respublikasında tatami üzərinə çıxacaqlar




Noyabrın 26-dan 28-dək Koreya Respublikasının Çecu şəhərində cüdo üzrə Qran-pri yarışları keçiriləcək. Ötən həftə Çin Qran-pri yarışlarında uğurla çıxış edən Azərbaycan cüdoçuları Çecuda da tatami üzərinə çıxacaqlar. Reytinq xarakteri daşıyan turnirdə ölkəmizi Orxan Səfərov, İlqar Müşkiyev (hər ikisi 60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Hüseyn Rəhimli, Əbdulhaqq Rəsullu (hər ikisi 81 kq), Məmmədəli Mehdiyev, Ramin Qurbanov (hər ikisi 90 kq), Elxan Məmmədov, Elmar Qasımov (hər ikisi 100 kq) və Uşanqi Kokauri (100 kq-dan yuxarı) təmsil edəcəklər. Turnirdə 72 ölkədən 434 cüdoçu birincilik uğrunda mübarizə aparacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

## F-35 qırıcıları milyon saatlarla uçuş həyata keçirəcək

Məlum olub ki, 2020-ci ilin yayında ABŞ HHQ-nin Milli qvardiyasına məxsus Barlinqton (Vermont ştatı) aerodromunda 18 ədəd F-35A stels-qırıcıları görünəcək. Onlar hava ərazisində 750 min saat uçuşu həyata keçirəcək. Yaxınlıqda məskunlaşan əhali üçün bu qırıcıların görünməsinin heç bir təhlükə törətməyəcəyi barədə polkovnik-leytenant Kris Kaputo məlumat verib. Həmin dövrdə qırıcıların planlı uçuşu 248250 saat təşkil edəcək.

## Anqola Su-30K qırıcılarının ilk partiyasını əldə edəcək

Anqolanın Hərbi Hava Qüvvələri ilin sonuna qədər Su-30K qırıcılarının ilk partiyasını alacaq. Belarusiyanın Baranoviç aviasiya təmir zavodunda 12 ədəd Su-30K qırıcısı modernləşdirilir və Luandaya müqavilə əsasında təqdim ediləcək. Bu prosesin 2016-cı ilin sonunda başa çatması nəzərdə tutulub.

## "Dxanuş" ballistik raketinin sınağı keçirilib

Hindistanın Müdafiə Nazirliyi növbəti "Dxanuş" ballistik raketinin sınağını həyata keçirib. Verilən məlumata görə, raket dəqiq trayektoriya üzrə uçuşu yerinə yetirib. "Dxanuş" raketi "Prinxvi" raketinin dəniz versiyasıdır. O 500 kiloqrama qədər döyüş təchizatını daşımağa və 350 kilometrlik məsafəyə qədər olan yerüstü və dəniz hədəflərini məhv etməyə qadirdir.

## Niderland ABŞ-dan CH-47F "Çinuk" helikopterini alacaq

Niderland ABŞ-dan 1,5 milyard dollar məbləğində CH-47F "Çinuk" helikopterinin alınacağını nəzərdə tutub. Bundan başqa bu vəsaitə 46 ədəd mühərrik, hidromexaniki dəstlərin, inersiya naviqasiya sisteminin, radiostansiyanın, bir kanallı yerüstü və hava rabitə stansiyasının, transponder sisteminin və s. alınması da daxil edilib.

## Polşa "Tomaqavk" raketi alacaq

Polşa ABŞ-dan sualtı qayıqları üçün qanadlı "Tomaqavk" raketi almaq niyyətindədir. Ölkənin milli müdafiə naziri Tomaş Semonyak bildirib ki, raketlər yeni sualtı gəmilərdə yerləşdiriləcək və bu proses 2030-cu ilə qədər həyata keçiriləcək. Nazir belə gecikmənin səbəbini sualtı qayıqlarının hazırlanma prosesi ilə izah edib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Finalda layiq olan qazandı

***Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Respublikasının Milli Qəhrəmanı Əfqan Qaraxan oğlu Hüseynovun anım günü ilə əlaqədar noyabrın 2-dən 21-dək təşkil olunmuş bölüklərarası futbol yarışlarının final mərhələsi baş tutdu. Müdafiə Nazirliyinin, ölkənin futbol ictimaiyyətinin, Hərbi Liseyin nümayəndələrinin və Milli Qəhrəmanın yaxın qohumlarının, iştirak etdiyi mərasim futbol meydançasında təşkil olunmuşdu.***



Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu.

Tədbiri açıq elan edən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov iştirakçıları və qonaqları salamlayaraq Milli Qəhrəmanın qısa və mənalı həyat yolundan söz açdı. Gənclərin fiziki və mənəvi sağlamlığının cəmiyyət üçün çox önəmli olduğundan danışan lisey rəisi finala çıxan komandaları təbrik edib, həlledici oyunda onlara uğurlar arzulayaraq "layiq olan qazansın" söylədi.

Milli Qəhrəmanın bacısı Kəmalə Hüseynova qardaşının xatirəsinə göstərilən yüksək ehtirama görə, Müdafiə Nazirliyinin rəhbərliyinə, Hərbi Liseyin müəllim-kursant heyətinə öz dərin minnətdarlığını bildirdi.

Baş hakim Samir Ələsov oyunun başlamasını elan etdi. Həyəcanlı dəqiqələr bir-birini əvəz edir, azarkeşlərin və qonaqların sevinc dolu səsləri ətrafa yayılırdı. Gərgin mübarizə şəraitində keçən yarış oyunun bitməsini bildirən fit səsi ilə yekunlaşdı. 14 komandanın mübarizə apardığı oyunda birinci yerə 1-ci bölük, ikinci yerə 5-ci bölük, üçüncü yerə 14-cü bölük, dördüncü yerə isə 16-cı bölük çıxdı.

Birinci yerin sahiblərinə "Keçici kubok" Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov tərəfindən alqış sədaları altında təqdim olundu.

Digər qalib yerləri tutan bölüklərə fəxri fərman və medallar isə yüksək rütbəli zabitlər, AFFA-nın məsul işçisi, beynəlxalq dərəcəli hakim, "Neftçi" futbol komandasının veteranı Asim Xudiyev, beynəlxalq dərəcəli hakim Füzuli Nəcəfov, Milli Qəhrəmanın bacıları Kəmalə və Nailə Hüseynovalar, Milli Qəhrəmanın adını daşıyan bacısı oğlu Əfqan Hüseynov tərəfindən təqdim olundu.

Daha sonra kursantlardan Oruc Bayramov "ən yaxşı hücumçu", Anar Abdullayev "ən yaxşı müdafiəçi", Sarı Kahıyev "ən yaxşı qapıçı", Hüseyn Göyüşov "ən məhsuldar oyunçu" hesab olunaraq xatirə kuboku ilə mükafatlandırıldılar.

Yarışın təşkilində köməyinə görə fiziki hazırlıq bölməsinin rəisi, ehtiyatda olan mayor Fərhad Əliyev və başqaları fəxri fərmanla təltif olundular.

Tədbir əsnasında imkan tapıb Milli Qəhrəmanın adını daşıyan yeniyetmə Əfqan Huseynovla söhbətləşdim. Əfqan altıncı sinifdə oxuyur. O, dayısı ilə fəxr etdiyini və onun qəhrəmanlıq yolunu davam etdirəcəyini, Azərbaycan Ordusunun zabiti olacağını qürurla bildirdi. Onun Vətənə, qəhrəmanlığa olan sevgisi məni çox sevindirdi.

Sonda xatirə şəkilləri çəkildi.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 927
Nüsxə 4710